# Səyyar qəbullar



Yaşanılan ömür daima müəyyən problemlərlə dolu olur. Həyat mübarizədir və insan yaşadığı dövrdə çox çətinliklərlə qarşılaşır. Bəzən elə problemlərlə qarşılaşır ki, onların həlli tək özünün mübarizəsi ilə hasilə yetmir. O zaman xeyirxah insanlar onun çətinliklərinin həllində birgə mübarizəyə qoşulurlar. Axı xeyirxahlıq xalqımıza xas olan ən gözəl xüsusiyyətdir. İnsanların insan adının təsdiqidir xeyirxahlıq! Hər kəs öz gücü müqabilində bu missiyanı davam etdirərsə, insanların yaşam tərzində bu müsbət rol oynayar və oynayır.



Qəmərvan kəndi.



Daşca kəndi.



Şamlı kəndi.



Çarxana kəndi.

Rayonumuzun sakinlərinin rifah halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, mədəni-məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə buna görə də hər ay Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.

Bu ilin noyabr ayında səyyar qəbullar Qəmərvan, Daşca, Şamlı və Çarxana kəndlərində keçirilmişdir. Bu qəbullar zamanı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, Qəbələ rayon İH yanında ictimai şura nümayəndəliyinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı icra hakimiyyətinin başçısı tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılmışdır. Səyyar qəbullar zamanı sakinlər tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr verilmişdir. Görüş tədbirlərində çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

**"Qəbələ".**

**Fotolar S. Umuyevindir.**

# Vətəndaş qəbulları



1, 15 və 22 noyabr tarixlərində Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən vətəndaş qəbulları keçirilmişdir. Qəbullarda Vətən müharibəsi şəhidlərinin ailə üzvləri, qaziləri, eləcə də digər vətəndaşların müraciətləri, irəli sürdükləri təkliflər dinlənilmiş, qaldırılan məsələlərin bir qismi yerindəcə həll olunmuş, digərlərinin həlli nəzarətə götürülmüşdür. Şəhid valideyinləri və qazilər onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

### *QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2024-cü İLİN DEKABR AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ GÖRÜŞ-QƏBULLARIN QRAFİKİ*

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| İmamlı kəndi | 05.12.2024 | İmamlı ümumi orta məktəbi, saat $15^{00}$ |
| Seyidqışlaq kəndi | 12.12.2024 | Seyidqışlaq ümumi orta məktəbi, saat $15^{00}$ |
| Məlikli kəndi | 19.12.2024 | Məlikli tam orta məktəbi, saat $15^{00}$ |
| Əmirvan kəndi | 25.12.2024 | Əmirvan tam orta məktəbi, saat $15^{00}$ |

# Tarixi qələbəmiz Heydər Əliyev siyasətinin təntənəsidir

Qəbələ Rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr olunmuş "Tarixi Zəferimiz Heydər Əliyev siyasətinin təntənəsidir" adlı tədbir keçirilib. Tədbirdə öncə ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canından keçərək şəhadətə ucalmış şəhidlərimizin xatirəsi 1 dəqiqəlik sükutla yad edilib.Tədbirdə çıxış edənlər Ali Baş Komandanın rəhbərliyi altında 44 günlük Vətən müharibəsində qazanılan qələbədən, qəhrəman oğullarımızın göstərdiyi şücaətdən və hər zaman ordumuza dəstək olan, arxa cəbhədə əsgərlərimizlə birlikdə çiyin-çiyinə vuruşan xalqımızın mübarizə əzmini diqqətə çatdırıblar. Sonda məktəblilərin ifasında vətənpərvərlik mövzusunda şeirlər səslənib, Vətən müharibəsində qazanılan tarixi Zəfərlə bağlı videoçarx nümayiş olunub.

# Qəbələdə Zəfər günü qeyd olunmuşdur




## Şəhidlər xiyabanını ziyarət

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış şanlı Qələbənin ildönümü- 8 noyabr "Zəfər Günü" münasibətilə Milli Məclisin deputatı Elşən Musayevin, Qəbələ Rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, Vətən müharibəsi şəhidlərinin ailə üzvləri, müharibə iştirakçıları, qazilər və rayon ictimaiyyətinin nümayəndələri Birinci Qarabağ və Vətən müharibəsində şəhadətə yüksəlmiş şəhidlərin xatirəsinə ucaldılmış Şəhidlər Xiyabanı kompleksini ziyarət edərək, məzarlara və xatirə lövhələrinin qarşısına gül dəstələri düzmüşlər.

* * *

## Rəsm sərgisi

Qəbələ Dövlət Rəsm Qalereyası tərəfindən 8 Noyabr - Zəfər günü münasibəti ilə "Şanlı Zəfər tarixi yazan qəhrəmanlar" adlı rəsm sərgisi keçirilib. Tədbirdə öncə ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canından keçərək şəhadətə ucalmış şəhidlərimizin xatirəsi 1 dəqiqəlik sükutla yad edilib. Çıxış edənlər erməni silahlı qüvvələrinin təcavüzünə cavab olaraq başlayan Vətən müharibəsində qazanılmış qələbədən, xalqın ölkə prezidenti İlham Əliyevin ətrafında yumruq kimi birləşməsindən danışmış, vətən uğrunda canından keçmiş şəhidlərə rəhmət, ailələrə səbr diləmiş, qazilər və müharibə iştirakçılarına can sağlığı arzulamışlar. Sonda Zarağan 2 saylı və Xırxatala kənd tam orta məktəb şagirdlərinin ifasında 8 noyabr - Zəfər gününə həsr edilmiş şeirlər səslənmiş və vətənpərvərlik mövzusunda işlədikləri rəsm əsərlərindən ibarət sərgiyə baxış keçirilmişdir.



* * *

## Bayram konserti

8 noyabr 2024-cü il tarixdə Qəbələ şəhər Elçin Kərimov küçəsində yerləşən "Qəbələ Mall" ticarət mərkəzinin qarşısında Zəfər Gününə həsr edilmiş respublikanın tanınmış mədəniyyət və incəsənət xadimlərinin iştirakı ilə konsert proqramı və atəşfəşanlıq təşkil edilmişdir.



